**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**RUS ƏDƏBİYYATI TARİXİ KAFEDRASI**

# RUS ƏDƏBİYYATI

## KURSU ÜZRƏ FƏNN PROQRAMI

**BAKALAVR PİLLƏSİNDƏ**
**TƏHSİL ALAN TƏLƏBƏLƏR ÜÇÜN**

**İXTİSAS: FİLOLOGİYA 050205**
**(AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI)**
**(II kurs)**

**BAKI-2021**

**Tərtibçilər:** *Əfəndiyeva Lalə Rasim qızı - filologiya üzrə fəlsəfə doktoru Dövlət Universitetinin, Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının* dosenti.

*Əsədov İbrahim Nazim oğlu – Bakı Dövlət Universitetinin rus ədəbiyyatı tarixi kafedrasanın doktorantı.*

**Redaktor:** *Yaqubova Məryəm Adinyayeva - filologiya üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin rus ədəbiyyatı tarixi kafedrasının dosenti.*

**Rəyçilər:** *Musayeva Fidanə Vəli qızı - filologiya üzrə fəlsəfə doktoru, Bakı Slavyan Universotetinin Azərbaycan ədəbiyyatı kafedrasının dosenti.*

*Əliyeva Solmaz **Ağazazəki** qızı - filologiya üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin rus ədəbiyyatı tarixi kafedrasının dosenti.*

**Rus ədəbiyyatı**

**İzahat vərəqi**

«Rus ədəbiyyatı» fənni filologiya fakültəsinin Azərbaycan bölməsinin tələbələrinə dünya ədəbiyyatının tarixi inkişaf prosesini öyrətmək üçün mühüm əhəmiyyətə malikdir. Proqram fənnin daha rahat mənimsənilməsinə kömək etmək məqsədilə tərtib edilmişdir və dünya ədəbiyyatı və mədəniyyətində önəmli yer tuta bilmiş rus söz sənəti fenomenini başa düşməyə imkan verir.

Proqram Bakı Dövlət Universitetinin Filologiya fakültəsində "Filologiya: Azərbaycan dili və ədəbiyyatı" (050205) ixtisası üzrə təhsil alan tələbələrin rus ədəbiyyatı tarixini öyrənməsi üçün nəzərdə tutulmuşdur.

Təlim mühazirə və məşğələ formasında keçirilir.

Proqramda rus ədəbiyyatının əsas tarixi mərhələləri, əsas ədəbi cərəyanların yaranma yolları və üsulları, həmçinin rus bədii söz sənətinin tanınmış nümayəndələrinin fəaliyyəti öz əksini tapmışdır.

Fənnin tədrisində Azərbaycan mövzusunun rus ədəbiyyatında əks olunması məsələsinə xüsusi diqqət yetirilir.

**Tədris kursunun məqsəd və vəzifələri:**

- tələbələri qədim dövr rus ədəbiyyatı ədəbi prosesinin əsas faktları ilə tanış etmək;
- tələbələri rus klassisizmi, sentimentalizmi, romantizmi və realizminin formalaşması yolları və metodları ilə tanış etmək;
- tələbələri göstərilən dövrün rus ədəbiyyatının əsas tarixi-ədəbi faktları və görkəmli nümayəndələrinin yaradıcılığı və tərcümeyi-halları ilə tanış etmək.

**Tələbə bilməlidir:**

- göstərilən dövrdə rus ədəbiyyatının inkişafı tarixini;

- göstərilən dövrün əsas ədəbi istiqamətləri və cərəyanlarını;

- göstərilən dövrdə rus ədəbiyyatının aparıcı nümayəndələrinin həyat və yaradıcılığının əsas faktlarını.

**Tələbə bacarmalıdır:**

- rus ədəbiyyatının ayrı-ayrı nümayəndələrinin öz dövrlərinin tarixi-ədəbi prosesində rolunu və əhəmiyyətini müəyyən etmək;

- göstərilən dövrün aparıcı istiqamətlərinin və cərəyanlarının əsas ideya-estetik prinsiplərini müəyyən etmək;

- rus ədəbiyyatının mühüm əsərlərini təhlil etmək; - mətnlərlə işləmək və onları təhlil etmək.

**Tələbə yiyələnməlidir:**

- rus ədəbiyyatının tarixi inkişaf yolları haqqında biliklərə;

- tövsiyə olunan materialdan istifadə etmək və onu tənqidi şəkildə dərk etmək bacarığına;

- praktiki materialın seçilməsinə və müstəqil təhlil bacarıqlarına.

“Rus ədəbiyyatı" kursunun məqsədi rus ədəbiyyatı tarixinin ən mühüm və başlıca dövrlərini ətraflı öyrənmək, habelə rus ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığı ilə hərtərəflitanış olmaqdır və bu, şübhəsiz ki,gələcək filoloqlarınhərtərəfli mütəxəssis kimi hazırlanması sistemində mühüm və zəruridir.

**Mövzuların saatlar üzrə paylanması**

| № | Mövzular | Saatların cəmi | |
|---|---|---|---|
| | | Mühazirə | Seminar |
| 1. | Fənnin məqsəd və vəzifələri. Rus ədəbiyyatının inkişaf mərhələləri | 2 | 2 |
| 2. | Qədim dövr rus ədəbiyyatı | 2 | 2 |
| 3. | XVIII əsr rus ədəbiyyatı | 2 | 2 |
| 4. | XIX əsrin birinci yarısında rus ədəbiyyatı | 2 | 2 |
| 5. | Poeziya (V.A.Jukovski, İ.A.Krılov. Dekabrist poeziyası) | 2 | 2 |
| 6. | Poeziya A. S. Puşkin, M.Y. Lermontov | 2 | 2 |
| 7. | XIX əsrin birinci yarısında nəsrin inkişafı (A.S.Puşkin, M.Y.Lermontov, N.V.Qoqol, İ.A. Qonçarov) | 2 | 2 |
| 8. | XIX əsrin ikinci yarısında rus ədəbiyyatı | 2 | 2 |
| 9. | Poeziya («Təmiz incəsənət» poeziyası, N.A.Nekrasov, «Nekrasov məktəbi») | 2 | 2 |
| 10. | XIX əsrin ikinci yarısında nəsrin inkişafı (İ.S.Turgenev, F.M.Dostoyevski, M.Y.Saltıkov-Şedrin, L.N.Tolstoy, A.P. Çexov) | 2 | 2 |
| 11. | Dramaturgiya (A.N.Ostrovski, A.P. Çexov) | 2 | 2 |
| 12. | XIX əsr rus ədəbiyyatında Azərbaycan | 2 | 2 |
| 13. | XX əsrin birinci yarısında rus ədəbiyyatı | 2 | 2 |
| 14. | XX əsrin ikinci yarısında rus ədəbiyyatı | 2 | 2 |
| 15. | Müasir dövrdə rus ədəbiyyatı | 2 | 2 |
| | **CƏMİ:** | **30** | **30** |

## MÖVZULAR VƏ ONLARIN MƏZMUNU

### 1. FƏNNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ. RUS ƏDƏBİYYATININ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Fənnin məqsəd və vəzifələri. Rus ədəbiyyatının dünya ədəbiyyatında yeri. Azərbaycanda rus ədəbiyyatının nümayəndələri ilə sıx əlaqə. Filologiya fakültəsinin Azərbaycan bölməsində rus ədəbiyyatının keçdiyi inkişaf yolları və Azərbaycan ədəbiyyatı nümayəndələri ilə əlaqəsi.

Rus ədəbiyyatının mərhələləri.

### 2. QƏDİM DÖVR RUS ƏDƏBİYYATI

Qədim rus ədəbiyyatı rus ədəbiyyatının erkən inkişaf mərhələsidir. Qədim rus ədəbiyyatının əhatə etdiyi dövr və onun səciyyəvi cəhətləri: əlyazmaları, ənənəvilik, anonimlik, folklor, kilsə yazıları ilə əlaqəsi. Qədim rus ədəbiyyatının əsas mövzuları. Onun tarixiliyinin xüsusiyyətləri. Janr özəllikləri. Orta əsr dünyagörüşünün xüsusiyyətləri.

Qədim rus ədəbiyyatının informatik, tərbiyəvi və estetik əhəmiyyəti. Ədəbi dilin inkişafında onun rolu.

XI-XII əsrlər orijinal rus ədəbiyyatının əsas mövzu və janrları. Dastanlar, jitiye ədəbiyyatı, salnamələr, səyahətnamələr.

«İqor polku dastanı». Tapılması, nəşr edilmə və öyrənilmə tarixi. Dastanın janr xüsusiyyətləri və üslubu. «Dastanın müəllifi məsələsi. «İqor polku haqqında dastan»ın digər orta əsr xalqlarının eposları ilə tipoloji əlaqəsi («Roland haqqında nəğmə», «Sid haqqında nəğmə», «Nibelunqlar nəğməsi», «Kitabi-Dədə Qorqud»,

«Pələng dərisi geymiş pəhləvan»).

Qədim rus ədəbiyyatı ənənələrinin rus ədəbiyyatının sonrakı dövrlərdə inkişafına təsiri. Qədim rus ədəbiyyatının obrazları, süjet və janrlarından XVIII, XIX və XX əsr yazıçılarının istifadə etməsi. Qədim rus ədəbiyyatının ümummədəni, tərbiyəvi və bədii əhəmiyyəti.

XVII əsr rus ədəbiyyatı.

Qədim rus ədəbiyyatı Azərbaycanda. Qədim rus ədəbiyyatı nümunələrinin Azərbaycan dilinə tərcüməsi. Azərbaycan yazıçıları və alimləri qədim rus ədəbiyyatı haqqında.

## 3. XVIII ƏSR RUS ƏDƏBİYYATI

XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Rusiyada tarixi şərait. XVIII əsr rus ədəbiyyatının ideya və bədii əhəmiyyəti. «Qədim və «yeni» rus ədəbiyyatı arasında mənəvi körpü. XVIII əsr rus ədəbiyyatının milli özünəməxsusluğu. Rus yazıçılarının dünya ədəbiyyatı nümunələrindən bəhrələnmələri.

Maarifçilik və elmin inkişafı. Dünyəvi təhsil sisteminin yaradılması, nəşriyyat işinin genişlənməsi. İlk rus qəzeti, qəzetdə çap edilən məqalələrin xarakteri. Yeni mədəniyyətin formalaşması. Bədii ədəbiyyatda yeniliklə keçmiş dövrlərin əlaqələndirilməsi.

Rus klassisizminin formalaşması, tarixi-ictimai kökləri və milli səciyyəsi. Rus klassisizminin poetikası: ictimai həyatda poeziyanın rolu və əhəmiyyətinə yeni münasibət, janrların təsnifatı, ədəbi dilin formalaşması. Rus klassisizminin əsas nümayəndələri: A.D.Kantemir, V.K.Trediakovski, M.VLomonosov, A.P.Sumarokov.

V.K.Trediakovski. Trediakovskinin poeziyasının janr rəngarəngliyi. «Tilemahida» poeması, maarifçilik ideyaları, poemadakı siyasi müxaliflik.

Yazıçının fəaliyyətinin mütərəqqi xüsusiyyətləri. Trediakovski rus filologiyasının təşəbbüskarı kimi.

M.V. Lomonosov və dövrün ədəbi prosesində onun rolu. Rus klassisizmi və sonrakı dövrlərdə rus ədəbiyyatının inkişafında Lomonosovun rolu.

A.P.Sumarokov rus klassisizminin nəzəriyyəçisi kimi.

Sumarokovun dramaturgiyası, XVII əsr rus teatrının inkişafında onun rolu.

XVIII əsrin sonunda ədəbiyyat.

Yeni ədəbi cərəyanın – rus sentimentalizminin yaranması, ədəbiyyatda realist meyillərin güclənməsi. Jurnalistikanın inkişafı. Satirik jurnalistikanın geniş intişarı.

XVIII əsrdə maarifçi realizm.

Dramaturgiyanın inkişafı. Yeni dramatik janrların meydana gəlməsi («meşşan dramları», «ağlamalı komediya»). D.İ.Fonvizin – dramaturq.

Poeziya. Q.R.Derjavin XVIII əsrin ikinci yarısında rus poeziyasının görkəmli nümayəndəsi kimi.

Nəsr. Nəsrin inkişafı demokratik ədəbi prosesin göstəricisi kimi. A.N.Radişşev. «Peterburqdan Moskvaya səyahət» əsərinin rus ictimai fikri və rus bədii ədəbiyyatının inkişafı ilə əlaqəsi.

İ.A.Krılov. İ.A.Krılov – jurnalist, dramaturq. Satirik-təhkiyə və əxlaqi fəlsəfi məktublar.

Rus sentimentalizminin əsas xüsusiyyətləri.

N.M.Karamzin. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində ədəbi prosesdə Karamzinin rolu. Karamzin rus zadəgan sentimentalizminin nümayəndəsi kimi.

XVIII əsr rus ədəbiyyatı Azərbaycanda. XVIII əsr rus ədəbiyyatı nümunələrinin Azərbaycan dilinə tərcüməsi. Azərbaycan yazıçıları və alimləri XVIII əsr rus ədəbiyyatı haqqında.

## 4. XIX ƏSRİN BİRİNCİ YARISINDA RUS ƏDƏBİYYATI

Rus ədəbiyyatının inkişaf tarixində XIX əsrin I yarısındakı rus ədəbiyyatının həlledici rolu.

Rus romantizmi. Rusiyada romantizm cərəyanının xüsusiyyətləri. Əsas nümayəndələri. «Polyarnaya zvezda» («Qütb ulduzu») almanaxı (K.F.Rıleyev, A.A.Bestujev).

## 5. POEZİYA (V.A. JUKOVSKI, İ.A.KRILOV. DEKABRİST POEZİYASI)

XIX əsrin birinci rübündə rus poeziyasının çiçəklənməsi (rus poeziyasının «qızıl dövrü». V.A.Jukovskinin poeziyası. İ.A.Krılov təmsil ustası kimi. Dekabrist poeziyası.

## 6. POEZİYA (A.S. PUŞKİN, M.Y. LERMONTOV)

A.S.Puşkin. Puşkinin həyat və yaradıcılıq yolu. A.S. Puşkinin poeziyası. Əsas motivləri. Puşkin lirikasının janr rəngarəngliyi. Poemaları. «Yevgeni Onegin» mənzum romanı.

M.Y.Lermontovun poeziyası. Lermontovun lirikasının əsas motivləri. Qafqaz poemaları.

XIX əsrin I yarısında rus poeziyasının görkəmli nümayəndələri (A.S.Puşkin, M.Y.Lermontov).

«Yevgeni Onegin» mənzum romanı. Yazılma tarixi. Bədii özünəməxsusluğu. Janr xüsusiyyətləri. Kompozisiyası. Üslubu və dili. Onegin bəndi. Əsərin ideya və obrazlar sistemi. Romanın əsas mövzusu. V.Q.Belinski ro-

man haqqında. 1830-cu ildə Boldino payızı.

«Boris Qodunov» rus ədəbiyyatında ilk realist faciə kimi. Faciədə xalq obrazı.

M.Y. Lermontov. Həyat və yaradıcılıq yolu. Erkən şeirlərində romantizm. Puşkin şeirlərinin motivləri Lermontovun erkən yaradıcılığında. Lermontovun lirikasının əsas motivləri.

## 7. XIX ƏSRİN BİRİNCİ YARISINDA NƏSRİN İNKIŞAFI (A.S.PUŞKİN, M.Y.LERMONTOV, N.V.QOQOL, İ.A. QONÇAROV)

Rus ədəbiyyatında ədəbi tənqidin inkişafı. Belinskinin A.S.Puşkin, N.V.Qoqol, M.Y.Lermontov və b. haqqında məqalələri. A.İ.Gertsenin ilk əsərlərində romantizm. Gertsen və naturalizm məktəbi. Gertsenin «Kimdir müqəssir?» əsəri və onun rus realist romanının inkişafında rolu. Ədəbiyyatda kiçik adam və artıq adam mövzuları. (İ.A. Qonçarovun«Oblomov» romanı)

A.S.Puşkinin nəsr yaradıcılığı. Povestləri («Dubrovski», «Kapitan qızı», «Belkinin povestləri»). «Böyük Pyotrun ərəbi» romanı və b.

M.Y.Lermontovun nəsri. «Zəmanəmizin qəhrəmanı» romanı.

N.V.Qoqol. Povestləri («Dikanka yaxınlığında xutor axşamları», «Mirqorod», «Arabeski» silsilələri). Qoqolun povestlərində Peterburq və «kiçik adam» mövzusu. «Ölü canlar» poeması.

Rus realist ədəbiyyatının inkişafında Qoqolun rolu.Qoqol – dramaturq. «Müfəttiş» komediyası. «Ölü canlar» poeması.

## 8. XIX ƏSRİN İKİNCİ YARISINDA RUS ƏDƏBİYYATI

Realizmin tam formalaşması və poetikasının çiçəklənməsi. Təhkiyə ədəbiy-

yatının üstünlükləri, janr rəngarəngliyi (oçerk, hekayə, povest, hekayə və oçerklər silsiləsi, klassik formalı roman), sistemdən kənar janrlarda əsərlərin yaranması (roman – epopeya, epik satira, fəlsəfi –publisistik roman və s.). «Poetik olmayan dövr-də» poeziyanın yenilənməsi və inkişafı. Qəhrəman və xalq problemi. Bu illərdə rus poeziyasının taleyi. N.A. Nekrasov və «Nekrasov məktəbi».

## 9. POEZİYA («TƏMİZ İNCƏSƏNƏT» POEZİYASI, N.A.NEKRASOV, «NEKRASOV MƏKTƏBİ»)

N.A.Nekrasov. Nekrasovun rus ədəbiyyatı tarixində yeri. Nekrasovun lirikasının əsas motivləri. «Nekrasov məktəbi».

«Təmiz incəsənət» poeziyası (L.Maykov, Y.Polonski, A.Qriqoryev, A.Fet və b.) və Belinski. Nekrasov «Sovremennik» («Çağdaş») və «Oteçestvennıye zapiski» («Vətəndən qeydlər») jurnallarının, «Peterburqun fiziologiyası» almanaxının redaktoru və naşiri kimi.

## 10. XIX ƏSRİN İKİNCİ YARISINDA NƏSRİN İNKİŞAFI (İ.S.TURGENEV, F.M.DOSTOYEVSKI, M.Y.SALTIKOV-ŞEDRİN, L.N.TOLSTOY, A.P. ÇEXOV)

İ.S.Turgenev. Həyat və yaradıcılığı. «Ovçunun qeydləri» (yaranma tarixi, problematikası). 40-50-ci illərdə Turgenevin hekayə və povestləri («Asya», «Faust» və b.).

Turgenev roman müəllifi kimi («Rudin», Zadəgan yuvası», «Ərəfə», «Atalar və oğullar» və b.). Turgenevin nəsrində «artıq adam» mövzusu. Mənsur şeirlər silsiləsi.

F.M.Dostoyevski. F.M.Dostoyevskinin yaradıcılığının mərhələləri problemi.

1840-cı illərdəki Peterburq povestləri (problematika və obrazları)

«Əzilmiş və alçaldılmışlar» romanı; romanın problematika və poetikasında «köhnə və yeni». 50-ci illərin sonu - 60-cı illərin əvvəllərində Dostoyevskinin romanlarında əzilmiş və alçaldılmışlar mövzusunun inkişaf etdirilməsi. «Cinayət və cəza» əsəri sosial-fəlsəfi və psixoloji roman-faciə kimi. Romanın problematikası.

«İdiot» romanında «müsbət gözəl insan» surəti və müsbət qəhrəmanın bədii təsvirində bədii təsvir ənənələri. Gözəlliyin lənətlənməsi və gözəlliyin dünyanı xilas etməsi mövzusu.

Dostoyevskinin 1870-ci illərdəki romanları («Cinlər», «Yeniyetmə» romanları). «Yazıçının gündəliyi».

«Karamazov qardaşları» - yekun romanı kimi.

Dostoyevski və Azərbaycan. Əsərlərinin Azərbaycan dilinə tərcüməsi və yaradıcılığının öyrənilməsi. Dostoyevskinin azərbaycanlı tədqiqatçıları.

M.Y.Saltıkov-Şedrin. Şedrinin satirası rus və dünya ədəbiyyatında mühüm hadisə kimi. Yaradıcılığının əsas mərhələləri. Saltıkov-Şedrinin nəsrinin janr rəngarəngliyi (oçerk, roman, povestlər). Satirik nağılları. Saltıkov-Şedrinin nağıllarının «ezop dili».

L.N.Tolstoy. Həyat və yaradıcılığının əsas mərhələləri.

Tolstoyun erkən yaradıcılıq dövrü. Tolstoy Qafqazda. «Uşaqlıq», «Yeniyetməlik», «Gənclik» – mənəvi həyat və mənəvi inkişaf məsələləri. Tolstoyun pedaqoji ideyaları və fəaliyyəti («Yasnaya polyana» jurnalı).

«Hərb və sülh» milli epopeya nümunəsi və tarixi roman kimi. Hərb və sülh anlayışlarının fəlsəfi-tarixi mahiyyəti.

«Anna Karenina» romanında ailə haqqında düşüncələr.

«Dirilmə» romanı Tolstoyun yaradıcılıq yolunun yekunu kimi.

«Hacı Murad» povesti. İki fərqli qütb – Asiya və Avropa arasında qalmış

müstəqil şəxsiyyətin vəziyyəti və taleyinin faciəviliyi (Şamil və I Nikolay). L.Tolstoyun bir yazıçı kimi dünya ədəbiyyatında rolu və mütəfəkkir kimi dünya şöhrəti.

Tolstoy və Azərbaycan. Əsərlərinin Azərbaycan dilinə tərcüməsi və nəşri. Azərbaycanda Tolstoy irsinə münasibət.

A.P. Çexov XIX əsr rus nəsri və dramaturgiyasının görkəmli nümayəndəsi kimi. Yaradıcılığının mərhələləri. Yaradıcılığının erkən dövrü. Yumoristik almanaxlarda iştirakı. Çexovun1880-ci illərdəki novellaları.

1890-cı illərdəki nəsrinin özəllikləri. «6 nömrəli palata», «Naməlum adamın hekayəti», «Mənim həyatım» əsərlərində dövrün və insan məişətinin mühüm problemlərinin qaldırılması.

1890-cı illərin sonları – 1900-cü illərdəki əsərlərinin özəlliyi («Xidməti işlərə görə», «Tanışların yanında», «İti olan qadın», «Gəlin»). «Varlığın ali məqsədi», köhnə həyatdan uzaqlaşma mövzuları. Çexovun əsərlərində finalın açıq qalması.

Çexov və dünya ədəbiyyatı. Çexov və Azərbaycan. Əsərlərinin Azərbaycan dilinə tərcüməsi və yaradıcılığının Azərbaycanda öyrənilməsi.

XIX əsr rus ədəbiyyatı Azərbaycanda. XIX əsr rus ədəbiyyatı nümunələrinin Azərbaycan dilinə tərcüməsi. Azərbaycan yazıçıları və alimləri XVIII əsr rus ədəbiyyatı haqqında.

## 11. DRAMATURGİYA (A.N.OSTROVSKİ, A.P. ÇEXOV)

A.N.Ostrovski. A.N.Ostrovski rus realist teatrının banisi kimi. «Öz adamlarımızdır, düzəlişərik» komediyasında patriarxal tacirlərin tənqidi. Milli həyatın müsbət cəhətlərinin axtarışı («Özgə xizəyinə minmə», «Yoxsulluq eyib deyil», «İstədiyin kimi yaşama». Ostrovskinin estetikasında ümummilli teatr konsepsiyası.

Ostrovskinin yaradıcılığında dram janrı («Tufan», «Cehizsiz qız» və b.).

Ostrovskinin dramaturgiyasında incəsənət problemi və aktyor obrazları («Meşə», «İstedadlar və pərəstişkarlar», «Günahsız müqəssirlər»).

Ostrovski və Azərbaycan, Azərbaycanla əlaqəsi, yaradıcılığının öyrənilməsi, əsərlərinin tərcüməsi və səhnələşdirilməsi.

Çexovun pyesləri rus ədəbiyyatı və dünya dramaturgiyasının yeni mərhələsi kimi. Çexovun «Qağayı», «Vanya dayı», «Üç bacı», «Albalı bağı» pyeslərində dramaturji novatorluq. Konfliktin yeni xarakteri, lirik məqamların gizli mənaları, pyeslərinin orijinallığı, dramatizm və komizmin vəhdəti. Çexov dramaturgiyası ilə nəsrinin əlaqəsi, problematikanın ümumiliyi, ən az vasitələrlə geniş ümumiləşdirmələr, mətn və mətnaltı əlaqə nisbəti.

## 12. XIX ƏSR RUS ƏDƏBİYYATINDA AZƏRBAYCAN

Qədim rus ədəbiyyatında Azərbaycan motivləri.

XVIII əsr rus ədəbiyyatında Şərq motivləri.

XIX əsr rus ədəbiyyatında Şərqə, xüsusən də Azərbaycana marağın artması (A.S. Qriboyedov, V. K. Küxelbeker, A.S. Puşkin, V. F. Odoyevski, M.Y.Lermontov və b.). Rus ədəbiyyatı nümayəndələrinin yaradıcılığında Azərbaycan motivləri.

A.S.Qriboyedov və Azərbaycan. Qriboyedovun gündəlik qeydlərində və rəsmi məktublarında Azərbaycan. Qriboyedov Nizami Gəncəvi və A.Bakıxanov haqqında. «Ağıldan bəla» komediyası. Komediyada keçmişlə indinin müqayisəsi.

«Ağıldan bəla» komediyası yazıldıqdan sonra Qriboyedovun yaradıcılığında Şərq mövzusu. 1828-ci il Türkmənçay müqaviləsinin imzalanmasında Qriboyedovun rolu.

V.K.Küxelbekerin yaradıcılığında Qafqaz motivləri. V.K.Küxelbeker və

A.Bakıxanov.

Azərbaycan A.A.Bestujev-Marlinskinin oçerklərində. Marlinskinin əsərlərində Azərbaycan folkloru və ədəbiyyatı nümunələri. Marlinskinin Qafqaz motivli əsərlərində türkizmlərin rolu, onun Azərbaycan dilinin xüsusiyyətləri ilə bağlı müşahidələri.

«Ərzruma səyahət» əsəri A.S. Puşkinin orientalizmində mühüm mərhələ kimi. Puşkinin azərbaycanlı tanışları.

M.Y. Lermontovun yaradıcılığında Şərq motivləri. Lermontovun Azərbaycan dilini öyrənməsi. Azərbaycan dastanı «Aşıq Qərib» Lermontovun qələmində.

Rus ədiblərinin azərbaycanlı müasirləri (A.Bakıxanov, F.Şeyda, M.F.Axundzadə və b.).

## 13. XX ƏSRİN BİRİNCİ YARISINDA RUS ƏDƏBİYYATI

XX əsrdə rus ədəbi prosesinin mərhələlərinin əsas xüsusiyyətləri. Cəmiyyətin inkişafında ictimai-siyasi amillərlə şərtləndirilən üç əsas mərhələ.

Əsrin əvvəllərindən 1920-ci illərin sonuna qədərki dövrdə rus ədəbiyyatı.

Əsrin ilk rübündə Rusiyada ictimai-siyasi vəziyyət. Ədəbiyyatda yeni istiqamətlərin axtarışı.

Ədəbi cərəyan və istiqamətlərin rəngarəngliyi (modernizm, dekadentizm, simvolizm, akmeizm, futurizm və s.). İncəsənətdə realizm və modernizmin birgə mövcudluğu.

XX əsrin əvvəllərində poeziya. Poetik məktəblərin müxtəlifliyi. Onların daha parlaq nümayəndələri (D.Merejkovski, K.Balmont, V.Bryusov, A.Blok, A.Belıy, O.Mandelştam, N.Qumilyov, V.Mayakovski, S.Yesenin, M.Svetayeva, A.Axmatova, Z.Gippius və b.).

XIX əsrin sonu – XX əsrin əvvəllərində nəsr. Bu dövrdə keçid mərhələsi kimi tənqidi realizmin xüsusiyyətləri. İ.Bunin, A.Kuprin, V.Veresayev və b. nəsrində yeni qəhrəman və şəxsiyyət konsepsiyası.

1930-1950-ci illərdə ədəbiyyat. Dövlətin ədəbiyyata təsiri. Ədəbiyyatda sosialist realizmi metodunun möhkəmlənməsi. Bütün yaradıcı qrupların qadağan edilməsi. Ədəbi qüvvələrin SSRİ Yazıçılar İttifaqı ətrafında birləşdirilməsi. M.Qorki yeni yazıçılar nəslinin rəhbəri kimi.

Epik ədəbiyyatın inkişafı: M.Şoloxov, A.Tolstoy və b.

Böyük Vətən Müharibəsi və müharibədən sonrakı dövrdə ədəbiyyat. Ədəbiyyatda Vətənin müdafiəsi və düşmənə nifrət ideyası (A.Tvardovski, K.Simonov, A.Fadeyev və b.).

## 14. XX ƏSRİN İKİNCİ YARISINDA RUS ƏDƏBİYYATI

«Yumşalma» və «durğunluq» dövrü (1956-1985) ədəbiyyatı. Şəxsiyyətə pərəstişin ifşası və müsbət qəhrəman tipinə yeni yanaşma (A.Soljenitsın, A.Tvardovski). Bu dövrdə yeni nəsr (Y.Bondarev, V.Bıkov və b.).

«Yumşalma» dövründə poeziya Y.Yevtuşenko, R.Rojdestvenski, B.Axmadullina, İ.Brodski və b.

Aşkarlıq və yenidənqurma dövrü ədəbiyyatı. Ədəbiyyatda senzuranın ləğvi. Bu dövrün nəsrində yeni mövzu və yeni qəhrəmanlar (V.Rasputin, V.Astafyev, A.Platonov, A.Rıbakov, A.Pristavkin).

## 15. MÜASİR DÖVRDƏ RUS ƏDƏBİYYATI

Poeziya və nəsrdə yeni reallıqların əksi. Rus ədəbiyyatı üçün yeni janrlar (siyasi detektiv, fentezi, triller).

Qadın nəsri (L.Petruşevskaya, T.Tolstaya, V.Tokareva və b.).

XX əsr rus ədəbiyyatı Azərbaycanda. XX əsr rus ədəbiyyatı nümunələrinin Azərbaycan dilinə tərcüməsi. Azərbaycan yazıçıları və alimləri XX əsr rus ədəbiyyatı haqqında.

**Fərdi işlərin mövzusu**

1.A.S.Puşkin. Poeziyasının əsas motivləri. «Yevgeni Onegin» poeması. Nəsr əsərləri.
2.M.Y.Lermontov. Poeziya (şeirləri və poemaları). «Zəmanəmizin qəhrəmanı».
3.N.V.Qoqol. Povestləri. «Ölü canlar» poeması. «Müfəttiş» komediyası.
4.İ.S.Turgenev. «Ovçunun qeydləri». Povest və hekayələri. Romanları.
5.A.N.Ostrovski. Pyesləri.
6.F.M.Dostoyevski. Romanları.
7.L.N.Tolstoy. Povest və hekayələri. Romanları.
8.A.P.Çexov. Povest və hekayələri. Pyesləri.
9.M.Qorki. Povestləri.
10.A. İ. Soljenitsın. Povestləri.

**Tədris fənninə dair biliklərə nəzarət formaları**

Tədris fənni biliklərin idarə edilməsinin aşağıdakı formalarını nəzərdə tutur:

- seminar məşğələləri zamanı şifahi sorğu;
- fərdi (müstəqil) işlərin yoxlanılması;
- kollokviumlar;
– yazılı imtahan.

## PROQRAMIN TƏDRİS-METODİKİ TƏMİNATI

**Əsas ədəbiyyat:**


1. Cəfərov M. Z. XIX əsr rus ədəbiyyatı. Ali məktəblərin filoloji fakültələrinin tələbələri üçün dərslik. Bakı: Maarif, 1988, 308 s.
2. Cəfərov M. Z. XIX əsr rus ədəbiyyatı. Üç hissədə. Ali məktəblərin filoloji fakültələrinin tələbələri üçün dərslik. Bakı: Maarif, 1970, I hissə, 316 s., II hissə, 324 s., III hissə, 305 s.
3. Cəfərov T. Qədim rus ədəbiyyatı. Bakı: Mütərcim, 2008, 112 s.
4. Cəfərov T. Rus ədəbiyyatı tarixi. Üç cilldə. Bakı: Mütərcim, 2020, I c., 596 s.
5. Rus ədəbiyyatı antologiyası. İki cilddə. Bakı: Avrasiya Press, 2007, I c., 232 s., II c.,, 408 s.
6. Rus ədəbiyyatı XVIII əsr. Bakı: Azərbyacan Universiteti, 1958, 267 s.
7. XX əsr rus ədəbiyyatı tarixi. Ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün dərslik. Bakı: Bakı Universiteti, 1992, 289 s.
8. Bestujev-Marlinski A.A. Molla Nur. Bakı: Elm və təhsil, 2016, 188 s.
9. Çexov A. P. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2006, 320 s.
10. Çexov A. P. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2009, 453 s.
11. Dotoyevski F. M. Seçilmiş əsərləri. Üç cilddə. Bakı: Şərq-Qərb, 2009, c. 1. 581 s., c. 2. 740 s., c. 3. 701 s.
12. İqor polku dastanı. Bakı: Azərnəşr, 1964, 36 s.
13. Krılov İ. A. Seçilmiş təmsillər. Bakı: Gənclik, 1988, 89 s.
14. Krılov İ. A., Qriboyedov A. S., Nekrasov N. A.. Seçilmiş əsərlər. İki hissədə. Bakı: Gənclik, 1989, İkinci hissə, 492 s.
15. Lermontov M. Y. Əsərləri. 4 cilddə. Bakı: Azərnəşr, 1964, I c., 418 s., II c., 405 s., III c., 636 s., IV c., 606 s.

16. Nekrasov N. A. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1951, 354 s.

17. Ostrovski A. N. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 209 s.

18. Puşkin A. S. Seçilmiş əsərləri. Üç cilddə. Bakı: Azərnəşr, 1988, I c., 334 s., II c., 376 s., III c., 227 s.

19. Qonçarov İ. A. Oblomov. Bakı: Gənclik, 1980, 538 s.

20. Qoqol N. V. Seçilmiş əsərləri. Bakı: Avrasiya press, 2006, 320 s.

21. Saltıkov-Şedrin M. V. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 240 s.

22. Tolstoy L. N. Seçilmiş əsərləri. Üç cilddə. Bakı: Şərq-Qərb, 2009, I c., 645 s., II c., 812 s., III c., 804 s.

23. Turgenev İ. S. Seçilmiş əsərləri. Üç cilddə. Bakı: Azərnəşr, 1989, I c.,,436 s., II c., 435 s., III c., 325 s.

**Əlavə ədəbiyyat:**

1. Ağaoğlu Ə. Rus ədəbiyyatının ümumi səciyyələri; Rus ədəbiyyatının ilk dövrləri; Karamzinə qədər Rus ədəbiyyatı; Karamzin dövrü; Puşkin dövrünün müqəddəməsi; Puşkin dövrü //Azərbaycan, 1989., №1, s.146-164.

2. Baxtin M.M. Dostoyevski poetikasının problemləri. Bakı: Kitab aləmi, 2005, 384 s.

3. Berdnikov G. Çexov: Həyat və yaradıcılığı. Bakı: Gənclik, 1983, 520 s.

4. Cəfərov M. Z. Azərbaycan-rus ədəbi əlaqələri tarixindən: Azərnəşr, 1964, 153 s.

5. Cəfərov M. Z. Rus klassikləri.Bakı: Azərnəşr, 1964, 196 s.

6. Hacıyev A. L.N.Tolstoy yaradıcılığının Qafqaz səhifələri //Tolstoy L.N. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2004, s. 3-10.

7. Hacıyev A. Mixail Aleksandroviç Şoloxov //Şoloxov M.A. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2006, 168 s.

8. Hacıyev A. S.Yesenin və Mərdəkanın qızıl payızı (Ə.Xəlilovun «S.Yesenin:

Mərdəkanın qızıl payızı və yaız» kitabı haqqında) //Azərbaycan, 28 fevral, 1997-ci il.

9. Hacıyev A. Satiranın mahir ustası: N.V.Qoqol //Qoqol N.V. Ölü canlar. Bakı: Çaşıoğlu, 2004, s. 3-10.

10. İsrafilova A. Anna Axmatova. Bakı: Elnur-P, 2005, 68 s.

11. Lermontov M. Y. və Azərbaycan. Bakı: Azərnəşr, 1941, 55 s.

12. Lermontov və Azərbaycan ədəbiyyatı. Bakı: Azərnəşr, 1976, 67 s.

13. Məmməd A. Rus ədəbiyyatının ən qədim abidəsi («İqor polku haqqında dastan») //Arif M. Seçilmiş əsərləri 3 cilddə. Bakı: Elm, 1970, c. 3, s.311-318.

14. Qəhrəmanov Ə. Rus şairləri Azərbaycan haqqında. Bakı: Azərnəşr, 1955, 156 s.

15. Qrossman L. Dostoyevski: həyat və yaradıcılığı. Bakı: Gənclik, 1972, 616 s.

16. Qurbanov Ş. Azərbaycan-rus ədəbi əlaqələri: Məqalələr məcmuəsi. Bakı: Elm, 1969, 218 s.

17. Qurbanov Ş. XIX əsrdə Azərbaycan-rus ədəbi əlaqələrinin inkişaf mərhələləri. Üç cilldə. Bakı: Azərnəşr, 1970, I c., 465 s.

18. Qurbanov Ş. XX əsr rus ədəbiyyatı tarixinə dair oçerklər: Dərs vəsaiti. Bakı: ADU, 1987, 88 s.

**Elektron təhsil resursları:**

1. http://www.millikitabxana.az/
2. https://www.twirpx.com/
3. http://www.klassika.ru/
4. http://philology.ru/
5. http://www.gumer.info/
6. http://elibrary.rsl.ru/
7. http://imli.ru/elib/
8. http://lib.pushkinskijdom.ru/

9. http://russian-literature.org/